# İSLAM MANAFOV
## sənətdə və ailədə



**İslam haqqında məqalə yazmaq, yenidən onu geniş oxucu kütləsinin yadına salmaq çoxdankı arzum idi. Hər dəfə buna hazır olmadığımı düşünür və bu fikrimi təxirə salırdım.**

Amma may ayının son günlərində İslam müəllimin yenidən Bakıya gəlməsi və bu gəlişin doğurduğu təəssürat nəhayət, istəyimin gerçəkləşməsilə nəticələndi. Mən, uzun-uzadı onun həyat və yaradıcılığı haqqında yazmaq istəmir, yalnız İ.Manafovun P.Çaykovski adına Moskva Dövlət Konsərvatoriyasının məzunu və Bakı Musiqi Akademiyasının fortepiano kafedrasının dosenti olmasını qeyd etməklə kifayətlənirəm. (Hal-hazırda ailəsi ilə İstanbulda yaşayır.)

Yuxarıda qeyd etdiyim kimi İslamın may ayının son günlərində Bakıya gəlməsi və bu gəlişinin səbəbinin bir çox musiqi ocaqlarında konsert verməsini planlaşdırdığını öyrəndikdə çox sevindik. İslam Manafovun yüksək professional ifasını Bakı dinləyicisi çoxdan gözləyirdi.

Mən onun repertuarı və verəcəyi konsert cədvəlini öyrəndikdə heyrətimi gizlədə bilmədim. Onun parlaq istedadına, yüksək ustalığına, ifa tərzinə və təfəkkürünə heç bir şübhəm yox idi. Repertuarın çox çətin və müxtəlifliyi ifaçıdan böyük cəsarət tələb edirdi, hələ bir də bu repertuarla gündə 2 konsert və bu konsertlər çox tələbkar bir auditoriya qarşısında. Sual dolu nəzərlərlə İslama baxdıqda o, mənalı, xəfif bir təbəssümlə gülümsədi. Səhəri günü konsertdəki ilk çıxışından sonra bu təbəssümün mənasını anladım.

İslam müəllimin bir pianoçu kimi yüksək professionallığı, onun texniki vərdişləri, interpretasiya məharəti.ffff -dən pppp enən səs dalğaları dinləyiciləri heyran etmişdi. Pianoçunun texniki imkanlarının, yüksək virtuozluğunun sanki həddi yox idi. Onun repertuarı simfonik əsərlər üzərindən transkripsiyalardan təşkil olunmuşdu. Bize-Horovits "Karmen" operasından mövzu üzərinə variasiyalar, Motsart-Volodos "Türk Marşı", Qlyuk-Sqambati "Orfey" operasından "Melodiya", Paderevskr "Menuet", Şubert-Lisf "Vals", Şopen-List "Gənc qızın arzuları". Transkripsiyaların ifasının nə qədər çətin olduğunu ifaçılar çox gözəl bilir. Simfonik orkestr üçün yazılan musiqi İslamın ifasında o qədər möhtəşəm səslənirdi ki, simli alətlərin həzinliyi, nəfəs alətlərinin təntənəsi, zərb alətlərinin dayanıqlı ritmi tək fortepianonun ifasında mükəmməl idi. Hər əsərin ifasından sonra zaldakı alqış səslərinin gurultusu salonu titrədirdi. İslam müəllim konsertin bitdiyini söylədikdə heç kəs yerindən qalxmırdı, sanki dinləyicilər hələ də onun ifasının sehrində idilər və ondan yeni ifalar istəyirdilər.

Mayın 18-dən 27-nə qədər verdiyi hər bir konsert böyük uğurla keçdi. A.Zeynallı adına musiqi kollecində konsert başlamamışdan əvvəl bir çox musiqi məktəblərindən gələn müəllimlərlə rastlaşdım. İ.Manafovun onların da məktəblərində konsert verdiyi halda bura nədən gəldiklərini soruşduqda, "belə bir ifanı dönə-dönə dinləməmək günah olardı" - deyə cavab verirdilər. Hətta bəzilərinə İslamın hər konsertində rast gəlirdim.

Konsertdən sonra İslamı əhatəyə alan müəllimlər, tələbələr, şagirdlər ondan məsləhət almağa çalışırdılar. Kimi onun hansı məktəbin davamçısı olduğunu, neçə saat məşğul olduğunu, kimisi hansı metodikadan istifadə etdiyini soruşurdu. İslam müəllim yüksək mədəniyyətlə onlara bir dahakı səfərini bu yöndən planlaşdırmasını söyləyirdi. Razılaşın ki, belə bir konsertdən sonra "Master klass" keçirmək mümkünsüzdür.

İ.Manafovun konsertləri musiqiçilər arasında,ələlxüsus da fortepiano ifaçıları və mütəxəssislər arasında çox böyük rezenans doğurdu. Bu konsertlərdəki təəssüratlardan doğan rəyləri, diskusiyaları dinləmək çox maraqlı idi. Musiqişünas prof. H.Babayeva, X.Qaradağlı, S.Sinamdzqvarişveli, T.Qrinin, A.Babazadə, N.Rajivina və başqaları pianoçunun mükəmməl ifası haqda yüksək fikirlər söyləyir, vətəndə olmadığına təəssüflənirdilər. Çox böyük təəssüflə qeyd etmək istəyirəm ki, özümüzünküləri layiqincə qiymətləndirməzdən öncə yersiz fikir yürüdənlər də oldu. "Repertuarınızda klassik bəstəkarlara yer verməmisiniz" söylədikdə, Manafov onlara "mənim soyadım - şteyn, -yan, -viç hecaları ilə bitsəydi siz belə danışmazdınız" deyib kinayəsini gizlətmirdi və buna haqqı da var idi. Bax belə etinasızlıq ucbatından İslam Manafov kimi bir çox əvəzolunmaz mütəxəssislərimiz özümüzün ehtiyacımız olduğu halda vətəndə yox, xaricdə yaşayıb-yaradırlar.

Mən 18 ildir ki, İslamı yaxından tanıyıram. Onun yaradıcılığına yaxşı bələdəm. İslamın repertuarı Baxın Tokkatalarından tutmuş, Haydn, Motsart, Bethoven, Şopen, Şubert, List, Mendelson, Debüssi, Ravel, Skryabin, Raxmaninov, Prokofyev, Qarayev, Əmirov və s. bütün dövrləri və cərəyanları əhatə edən bəstəkarların əsərləri ilə zəngindir.

Bundan qabaqkı konsertlərində İslam klassik bəstəkarların əsərlərindən ibarət repertuarla şəhərimizdə çıxış etmişdi.

İslam müəllim 10 ildir ki, İstanbulda yaşayır və çalışır. Orada ona yaradılan şərait İslam Manafovun bir yaradıcı insan kimi nələrə qadir olduğuna sübutdur. Bu illər ərzində İslam İstanbul Yeddltəpə Universitetinin dosenti olaraq, orada fortepiano ixtisası üzrə bir çox şagirdlər yetişdirmişdir. Onlardan bir neçəsi Moskvada Qnesina adına musiqi texnikumuna, P.Çaykovski adına Moskva Dövlət Konservatoriyasına qəbul olmuşlar.

Sankt-Peterburq, Moskva, Hannover, Wölfenbüttel, Braunschweig, Ankara və b. şəhərlərdə konsertlər vermişdir. İslam müəllim İstanbulda "Yedditəpə" adlı kamera orkestrinin və "Gənc orkestra" gənclərdən ibarət (burada azərbaycanlı musiqiçilər də var) kamera orkestrinin yaradıcısıdır. Bu orkestralar Türkiyənin bir çox tanınmış konsert salonlarında konsertlər vermiş və onlar haqda Türkiyənin bir çox qəzet və jurnallarında mütəxəssislər yüksək rəylər yazmışlar. (Bu barədə www. manafov.org saytında).

Onu da qeyd etmək istəyirəm ki, İslam müəllim sənətinin dəlicəsinə vurğunudur. Fortepiano aləti onun üçün əvəzolunmazdır. Onun alətə olan münasibəti məni hər dəfə heyran edib. Alət arxasına keçdikdə, sanki canlı bir insanla münasibət qurmağa hazırlaşdığının şahidi olmuşam. Bir dəfə, çay süfrəsinə yığışdığımız bir gün İslamın stulunun yerini dəyişdiyini görüb, oranın daha rahat olduğunu söylədim. O isə "mən axşam pianoya otura bilmərəm" deyib, daha münasib bir yer seçdi.

İ.Manafov yüksək intellektə, dünyagörüşə malik bir insandır. İncəsənətin, poeziyanın hər bir sahəsindən məlumatı və biliyi var. Ailə içində biz onu "Gəzən ensklopediyamız" adlandırırıq. İslamda həm də çox mənalı bir yumor hissi var. Konsertlərdə işlətdiyi frazalar, "Buna konsert deməyək, sadəcə olaraq 25 il bundan öncə çaldığımız royalların vəziyyətinə baxmaq üçün gəldim" deməsi alətlərin yarıişlək vəziyyətdə olmasına və ya tələbələrə "biz A.Zeynallıda oxuyanda, pianodan çox əl çalardıq" söyləməsi indiki tələbələrin konsertlərə az-az getməsinə bir işarə idi. O, bunları o qədər məzəli bir tərzdə deyirdi ki, dinləyici ilə onun arasında sanki bir körpü yaranırdı. Konsertin çox səmimi xarakter almasına səbəb olurdu, bu da ifaçı üçün çox vacib bir amildir.

Bu konsretlərdən, oradakı təəssüratlardan, ümumiyyətlə İslam Manafovdan bir kitab yazmaq olar. Amma mən bu məqaləmi İslam Manafovun "onun artıq zirvəyə çatdığını" söyləyən bir musiqiçiyə verdiyi cavabla bitirmək istəyirəm: "Zirvə artıq son deməkdir. Yaradıcılığın isə sonu yoxdur!!!"

Sənə sonsuz zirvələr fəth etməyi arzulayırıq.

**● Arzu MANAFOVA,**
***Xırdalan şəhər uşaq musiqi məktəbinin fortepiano müəllimi***

**P.S. Ölkəmizdə neçə-neçə müsabiqələr, festivallar keçirilir və bu tədbirlərə əcnəbi musiqiçilər, incəsənət adamları da dəvət olunur. Onlardan heç də geri qalmayan, ifaçılıq məktəbimizin fəxri sayılan İslam Manafovu da bu sırada görmək istərdik...**

